*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır * **İCTİMAİ-SİYASİ QƏZET** * №004 (204) may 2021-ci il

# "Xarıbülbül" festivalı mədəniyyət paytaxtında



***12-13 may 2021-ci il tarixlərində Azərbaycanın mədəniyyət paytaxtında, Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" musiqi festivalı keçirildi.***

"Xarıbülbül" musiqi festivalı sonuncu dəfə uzaq, 1989-cu ildə keçirilmişdi və nəhayət 32 il fasilədən sonra keçirilən bu festivalın şəhidlərimizin əziz xatirəsinə həsr olunması tarixi əhəmiyyət daşıyır, bu 44 günlük Vətən müharibəsində qazanılmış qələbənin mədəniyyət sahəsində davam etməsidir. Təsadüfi deyildir ki, festivalın açılışında çıxış edən Prezident İlham Əliyev bildirdi ki, biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq.

"Xarıbülbül" festivalı bir neçə cəhətdən diqqət çəkdi. Əvvəla bu, Azərbaycanda Vətən müharibəsindən sonra yaşanan ən mühüm mədəni hadisələrindən biri, sənət və sənətkarların musiqi bayramı, xalqımızın mənəvi zənginliyinin bütün dünyaya növbəti nümayişi idi. Ən başlıcası isə bu festival Şuşanın Cıdır düzündən beynəlxalq aləmə xalqımızın haqq-ədalət savaşında tarixi qələbəsinin təntənə mesajı, Azərbaycan xalqının milli birlik və həmrəyliyinin parlaq göstəricisi idi. Həm də Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Heydər Əliyev Fondunun təşkil etdiyi möhtəşəm "Xarıbülbül" musiqi festivalının məhz bu günlərdə keçirilməsi Qarabağın tarixi simasının, Şuşa şəhərinin mədəniyyət mərkəzi statusunun bərpasının təcəssümü idi. Çox sevindirici haldır ki, bundan sonra Şuşada "Xarıbülbül" musiqi festivalı hər il keçiriləcək, gələn il isə Prezident İlham Əliyevin dediyi kimi, Şuşa şəhərinin 270 illik yubileyi ən yüksək səviyyədə qeyd olunacaqdır.

Şuşa sıradan, adi yaşayış məntəqəsi deyil, Azərbaycanın mənəvi dünyasının bir hissəsidir, Prezident İlham Əliyevin bildirdiyi kimi, Şuşa Azərbaycan xalqının milli sərvətidir. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha təsdiq etmişdir.

Mənfur ermənilər işğal dövründə nə qədər çalışsalar da, Şuşanı özününküləşdirə bilmədilər, Azərbaycan ruhunu silə bilmədilər.

Vətən müharibəsindən 6 ay keçməsinə baxmayaraq, bərpa edilən "Xarıbülbül" festivalı xalqımızın mədəni və mənəvi zənginliyinin dünyada növbəti nümayişi idi, əsl həmrəylik, zəfər, qürur bayramı idi.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Şuşa şəhəri yenidən qurulur, bərpa edilir, əvvəlki şöhrəti özünə qaytarılır. Şuşa üçün yeni dövr başlayır, bu milli qürur və tərəqqi dövrüdür.

44 gün davam edən Vətən müharibəsində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etməyə və ərazi bütövlüyümüzü bərpa etməyə müvəffəq oldu.

Monoetnik Ermənistandan fərqli olaraq, Azərbaycanda həmişə müxtəlif dini, etnik icmalar dinc yanaşı yaşamış, dünyaya multikulturalizm örnəyi göstərmişlər. Qarabağ münaqişəsinin ilk günlərindən rəsmi Ermənistan milyonlarla vəsait xərcləyərək bu icmalar arasında təfriqə yaratmaq, bununla da Azərbaycanı zəiflətmək, parçalamaq niyyətləri güdmüş, bu məqsədlə çirkin təbliğat işləri aparmışlar.

Vətən müharibəsi həm də Ermənistanın bütün niyyətlərini heçə çıxardı, iyrənc siyasətinin mənasızlığını sübut etdi, bütün etnik və dini icmalar üç rəngli bayraq altında "dəmir yumruq" tək birləşərək, böyük Qələbədə həlledici pay sahibi oldular. Bu Qələbə həm də Azərbaycanda multikulturalizm ənənələrinin, tolerantlığın yüksək səviyyədə olduğunun göstəricisi idi. Məhz buna görə də Prezident İlham Əliyevin tövsiyəsi ilə builki "Xarıbülbül" festivalı həm də Azərbaycan multikulturalizm ənənələrinin simvoluna çevrildi.

Möhtəşəm "Xarıbülbül" musiqi festivalında müxtəlif xalqların mədəniyyətini, musiqi və rəqs ənənələrini nümayiş etdirən çıxışlar bir daha Azərbaycanda dini və etnik tolerantlığın yüksək səviyyədə qorunmasının və bu birliyin, vəhdətin İkinci Qarabağ, Vətən müharibəsində tarixi qələbəmizi şərtləndirdiyinin, Müzəffər Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, çoxkonfessiyalı, çoxmillətli bir respublikada inkişafın, milli həmrəyliyin, sülh və əmin-amanlığın təsdiqi idi. Vətən müharibəsi bizim şanlı tariximizdir, 44 günün hər bir günü, xüsusən alınmaz qala hesab olunan Şuşanın mənfur düşmənlərdən azad olunması ayrıca bir qəhrəmanlıq dastanı idi.

İllər öncə, "Qarabağ bülbülləri" ansamblı tərəfindən Abbas Səhhətin "Vətən" şeiri "Bayatı Şiraz" muğamı üstündə ifa edilmiş və işğal illərində bu ifa hər bir azərbaycanlı üçün xüsusi rəmzi əhəmiyyətə malik olmuşdur. "Xarıbülbül" festivalında gənc muğam ifaçısı tərəfindən bu parçanın ifası Şuşaya Azərbaycan nəfəsinin, ruhunun, mədəniyyətinin və mənəviyyatının böyük qayıdışının prelüdü sayılmalıdır.

Bu qayıdışın bir simvolik başlanğıcı da Ramazan bayramı münasibətilə Yuxarı Gövhərağa məscidində bayram namazının qılınmasıdır. Mənfur ermənilər tərəfindən azərbaycanlıların etnik təmizlənməsi zamanı, tarixi-dini abidələrimiz dağıdılmış, təhqirlərə məruz qalmışdır.

"Xarıbülbül" festivalının Ramazan bayramı ərəfəsində keçirilməsi böyük əhəmiyyət kəsb edir. Azərbaycanın bütün bölgələrində olduğu kimi, Şuşa şəhərində də Pənahəli xanın dövründən bəri dini dəyərlərə hörmətlə yanaşılmış, diqqət yetirilmişdir. İndi tək Şuşada deyil, işğaldan azad olunmuş bütün torpaqlarımızda azan səsləri ucalır, məscidlərimizdə bayram namazları qılınır. İslamın Azərbaycan xalqının birliyində, həmrəyliyində, formalaşmasında, milli mədəniyyətinin və mənəviyyatının qorunmasında xüsusi yeri var.

Xalqımızın yaxşı xatirindədir, Prezident İlham Əliyevin göstərişi ilə 2016-cı ilin Aprel döyüşlərində azad olunmuş Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscid inşa olunmuşdu və həmin məscidin açılışında əminliklə demişdi ki, vaxt gələcək Şuşa şəhəri də azad olunacaq, dağıdılmış məscidlər bərpa olunacaq, yeniləri inşa olunacaqdır. 5 ildən sonra, Ramazan bayramı ərəfəsində Şuşa şəhərində yeni məscidin təməli qoyularkən Prezident İlham Əliyevin dediyi hər bir sözün həyata keçdiyinin şahidi oluruq. Həmin gün ermənilər tərəfindən dağıdılmış, işğaldan sonra bərpa edilmiş "Xan qızı Natəvan" bulağından da su gəldi. Bütün bunlar böyük qayıdışdan xəbər verən rəmzi məna daşıyır.

***Vüqar Mürsəlov,***
***Qobustan rayon Gənclər və İdman İdarəsinin rəis müavini***

# Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edildi

***May ayının 10-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibəti ilə Qobustan rayon İcra hakimiyyətinin başçısı aparatı, idarə, müəssisə və təşkilatların kollektivləri, bələdiyyələr və ictimaiyyət nümayəndələri rayonda yerləşən Heydər Əliyev parkına gələrək Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etdilər.***






Müstəqil Azərbaycan Dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibəti ilə Qobustan rayonunda ümumrayon iməciliyi keçirildi.

Ulu öndərin doğum günü münasibəti ilə hər il ənənəvi olaraq təşkil olunan Gül bayramı bu dəfə də maraqlı və yaddaqalan oldu. Gül bayramı ilə əlaqədar may ayının 9-dan rayonda idarə, müəssisə və təşkilatların kollektivləri, bələdiyyələr və ictimaiyyət nümayəndələrinin iştirakı ilə iməciliklər təşkil olunub. Aksiyalar zamanı rayon ərazisində abadlıq və yaşıllaşdırma işləri aparıldı, 250 ağac əkildi. 10 may tarixində Qobustan rayonunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibəti ilə genişmiqyaslı ağacəkmə aksiyası keçirildi. Qobustan Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Heydər Məscidinin qarşısında ekoloji tarazlığın qorunması məqsədi ilə keçirilən aksiyaya Rayon İcra Hakimiyyəti başçısı Aparatı, YAP rayon təşkilatı, eləcə də bütün idarə, müəssisə və təşkilatların kollektivləri cəlb olundu. Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədovun da iştirak etdiyi tədbirdə 250 ağac tingi əkildi.

Aksiya zamanı ərazidəki yaşıllıq sahələrində təmizlik işləri aparıldı, yeni əkilən ağaclar suvarıldı və onlara aqrotexniki qaydada qulluq göstərildi,əkilən ağacların inkişafı üçün, həmçinin onların küləkdən qorunması və mühafizəsi məqsədilə zəruri tədbirlər görüldü.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibəti ilə təşkil olunan ağacəkmə aksiyasında əsas məqsəd ulu öndərin hər zaman xüsusi önəm verdiyi yaşıllıqları daha da genişləndirmək, ekoloji tarazlığı bərpa etmək, insanlar arasında ekoloji mədəniyyəti və təbiətə qayğı hissini təbliğ etməkdir.

# Şəhid ailələri və müharibə əlillərinə qayğı diqqət mərkəzindədir

***Cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilərkən demişdir ki, o, hər bir azərbaycanlının Prezidenti olacaqdır.***



Ötən 17 il ərzində istər ölkənin regionlarına işgüzar səfərlər zamanı, istərsə də mühüm dövlət obyektlərinin və layihələrinin açılışında sadə xalq kütlələri ilə görüşlərdə biz bunun əyani şahidi olmuşuq. Xüsusilə şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə qayğı göstərmək cənab Prezidentin daima diqqətində olmuşdur. 25 fevral tarixində biz belə diqqətə növbəti dəfə şahidlik etdik. Həmin gün cənab İlham Əliyevin açılışında olduğu Ramanı kompleksində şəhid ailələri və müharibə əlilləri üçün doqquzmərtəbəli 30 bina tikilmişdir. Ümumilikdə 1512 mənzildən ibarət kompleks bütün zəruri sosial infrastrukturla təchiz edilmişdir. Ərazidə məktəb, uşaq bağçası, klub-icma mərkəzi inşa olunub yeni sakinlər üçün istifadəyə verilmişdir. Dövlət başçısı tərəfindən cari ilin yanvarında imzalanan Sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil, habelə fərdi evlə təmin ediləcəkdir. Xüsusilə qeyd edək ki, cənab Prezidentin tapşırıqlarına əsasən görülən işlər böyük sürətlə və yüksək məsuliyyətlə icra olunur. Ramanı qəsəbəsindəki şəhərcikdə olan binaların hamısı müasir səviyyədə, yüksək keyfiyyətlə tikilib. Uşaq bağçası, 1200 yerlik məktəb inşa edilib. Yaşayış üçün bütün imkanlar yaradılmışdır. Müharibədən cəmi üç ay yarım keçməsinə baxmayaraq, şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilmişdir. Cənab Prezident xüsusilə qeyd etdi ki, ehtiyacı olan bütün qazilərə dövlət tərəfindən lazımi köməklik göstəriləcəkdir. Vətən müharibəsində misilsiz qəhrəmanlıq göstərmiş qazilərimizə bütün tibb müəssisələrində yüksək səviyyədə tibbi yardım göstəriləcəkdir. Bu yaxınlarda əsaslı təmirdən sonra açılmış Şağan qəsəbəsindəki reabilitasiya mərkəzi də qazilərimizin istifadəsinə veriləcəkdir. Orada hər il minlərlə qazi müalicə alacaq, reabilitasiyadan keçəcək, öz sağlamlığını bərpa edəcəkdir. Müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün də ən müasir protezlər sifariş edilibdir. 300-dən çox qazimiz bu protezlərlə təmin ediləcək. Ayaqlarını itirmiş qazilərimizin artıq bir neçəsi bu protezlərlə təmin edilib və onlar normal həyata dönə biliblər. Bu bir daha göstərir ki, Azərbaycan dövləti öz sosial siyasətinin strateji prioritetlərinə sadiqdir. Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir. Cənab Prezidentin çıxışından məlum oldu ki, bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladların ailələrinə Bakıda, Sumqayıtda, Abşeron rayonunda bu ilin sonuna qədər mənzillər veriləcək. Əlavə olaraq, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib.

Cənab Prezident çox doğru olaraq qeyd etdi ki, haqq-ədalət uğrunda müharibə aparan ölkəmiz qələbəyə məhkum idi. Ermənistan işğalçılıq, biz isə azadlıq müharibəsi aparırdıq. Haqq-ədalət bizim tərəfimizdə idi. Ona görə də bizim əsgərlərimiz əsil sücaət , qəhrəmanlıq göstərdilər, yüzlərlə igid oğullarımız döyüş meydanında yaralansalar da sonadək mübarizə apardılar, 3 minə yaxın əsgərimiz isə şəhidlik zirvəsinə ucaldı. Minlərlə hərbçimiz yüksək dövlət orden və medalları ilə təltif edilmişdir. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir azərbaycanlı üçün, xüsusilə gənc nəsil üçün örnək olmalıdır və heç şübhəsiz belə də olacaqır. Cənab Prezidentin rəhbərliyi altında ölkəmiz qələbənin əldə olunması üçün illər ərzində böyük hazırlıq işləri görürdü. Bu illər ərzində beynəlxalq müstəvidə, iqisadi sahədə, qonşularla münasibətlərdə, xüsusilə ordu quruculuğunda böyük işlər görüldü. Onu da qed etməliyik ki, gənc, vətənpərvər nəsil yetişdi. Məhz onlar 44 gün davam edən Vətən müharibəsində böyük şücaət, qəhrəmanlıq nümayiş etdirdilər. Bu illər ərzində vətənpərvərlik ruhunda, dövlətə sədaqət ruhunda formalaşmış gənclərimiz əzəli torpaqlarımızı işğalçılardan azad etdilər. Çox sevindirici hal idi ki, bu qələbənin qazanılmasında Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri dinindən və irqindən asılı olmayaraq bir yumruq kimi birləşərək iştirak etdilər, pay sahibi oldular. Əslində bu belə də olmalı idi, ölkəmizdə dünyaya nümunə olcaq tolerantlıq hökm sürür, yüz illərdir ki, müxtəlif millətlər dilindən və dinindən asılı olmayaraq iç-içə yaşamış və bu müqəddəs dövləti qurmuşlar və minlərlə şəhidlərin verilməsi hesabına qurulmuş Azərbaycanımızı qoruma-ğı, sevməyi, inkişaf etdirməyi mənəvi borc bilmişlər.

Cənab Prezident haqlı olaraq bildirdi ki, 30 ildir ki, davam edən işğalın güc yolu ilə həlli qaçılmaz idi. Xain və işğalçı Ermənistanın yürütdüyü siyasət münaqişənin sülh yolu ilə həll olunmasını mümkünsüz etdi. Ermənistan rəhbərliyinin təxribatçı çıxışları, qeyri-konstruktiv davranışları, işğal etdiyi ərazilə-ri qeyri-qanuni olaraq məskunlaşdırmağı, bu münaqişənin sülh yolu ilə həllini mümkünsüz etdi. Beynəlxalq təşkilatlar, xüsusilə bu məsələ ilə məşğul olan Minsk qrupuna həmsədrlik edən ölkələrin yüksək vəzifəli nümayəndələri daim təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Amma sülhün əldə olunması, qaçqınların doğma yurdlarına dönmələri üçün heç bir iş görmür, təcavüzkar Ermənistana heç bir təzyiq göstərmirdilər. Çox qəribə vəziyyət yaranmışdı, nə hərb, nə sülh və görünür, bu vəziyyət kimlərisə qane edirdi. Kimlərisə qane edirdi ki, Azərbaycan xalqı 30 il ərzində belə vəziyyətdə yaşasın, amma bu bizi qətiyyən qane etmirdi və biz buna mütləq son qoymalıydıq. Doğrudan acınacaqlı vəziyyət idi, bu azmış kimi, Azərbaycan uzun illər ərzində aparılan ikili siyasətə qarşı mübarizə aparmağa məcbur olmuşdur. Demokratiyadan dəm vuran bəzi nüfuzlu qeyri-hökumət təşkilatları və hegemon dövlətlər müxtəlif bəhanələrlə Azərbaycana təzyiqlər göstərir, amma Ermənistanda qeyri demokratik vəziyyətə, müxalifətin əzilməsinə, əsasız həbs olunmasına, hətta öldürülməsinə heç kim reaksiya vermirdilər. Cənab Prezident çox düzgün qeyd etdi ki, əslində keçən 30 illik tarix də sübut edir ki, biz bu qələbəni təkcə Ermənistan üzərində qazanmamışıq, həm də onlara havadarlıq edən edən qüvvələrə qarşı gücümüzü nümayiş etdirmişik. Bizə qarşı mütəşəkkil və güclü dairələr birləşib bizim torpağımızı əbədi işğal altında saxlamaq istəyirdilər, bu qüvvələr təcavüzkar Ermənistanı davamlı olaraq silahlandırırdılar, həm də bu silahlar pulsuz, havayı verilirdi və bu məqsədyönlü şəkildə həyata keçirilirdi. İyul ayında Tovuz toqquşmasından dərhal sonra, Vətən müharibəsinin son gününə qədər Ermənistana hər gün təyyarə ilə pulsuz silah gətirilirdi. Cənab Prezident haqlı olaraq bildirdi ki, ordu quruculuğu məsələləri daim diqqət mərkəzində qalacaqdır. Vətən müharibəsində istifadə olunmuş hərbi silahlarımızın yerinə yeniləri, daha müasirlər alınmalıdır, ordumuz bundan sonra da gücləncəkdir. Arxayınçılığa əsla yol veilmədən, yeni müqavilələr imzalanmış və ən müasir silahlar alınıraraq, gətirilir. Vətən müharibəsi göstərdi ki, sülhsevər Azərbaycan Ordusu daim xain qüvvələrin revanş xarakterli hərəkətlərinə hazır olmalı, düşməni yerindəcə otuzdurmaq üçün daha çevik, daha müasir Silahlı Qüvvələr yaratmalıdır.

Cənab Prezident tarixi dərsləri də unutmamağa çağırdı, Birinci Qarabağ müharibəsi zamanı ölkənin rəhbərliyində duran qüvvələrin səriştəsizliyi və bacarıqsızlığı xain düşmənə üstünlük qazandırdı, biz məğlub olduq. Həmin illərdə Azərbaycana rəhbərlik edənlər insanlar Vətəni qorumaq üçün heç bir tədbir görmədilər.. Xüsusilə AXC-Müsavat cütlüyünün dövründə Şuşa, Laçın, Kəlbəcər kimi strateji əhəmiyyətli yerlərin düşmənə verilməsi böyük xəyanət idi və bu müharibənin taleyini həll etdi. Biz bu acı məğlubiyyət əsla unutmamlı, düzgün, doğru tarixi dərs çıxartmalıyıq.

Ölkə başçımızın ağıllı, müdrik qərarları Azərbaycanı bir çox təxribatlardan qorudu. Vətən müharibəsinin gedişində Azərbaycan ordusu erməniləri öz torpağımızdan düz sərhədə qədər qovdu, amma sərhədin o tərəfinə keçmədi. Əgər ordumuz Ermənistan ərazisinə keçsəydi vəziyyət başqa cür ola bilərdi. Bizi, əslində, buna, təxribata təhrik edirdilər. Ermənistan ərazisindən qadağan olunmuş raketlərlə Gəncə, Bərdə, Tərtər, Goranboy, Naftalan kimi şəhərlərimiz, Ağdam, Beyləqan, Ağcabədi və Füzuli rayonlarının kəndləri vurularaq, böyük dağıntılar törətdilər, insanlarımızı qətlə yetirdilər. Ordumuz isə düşmən olsa da mülki əhaliyə qarşı yox, yalnız düşmən hərbçilərə mübarizədə öz hünərlərini nümayiş etdirdilər, erməni yaraqlılarını darmadağın etdilər.

Cənab Prezident sonda mövcud vəziyyəti dəyərləndirdi, biz doğma Qarabağımızın yaralarını sarıyırıq, böyük qayıdışa hazırlıq görürük, abadlıq və quruculuq işləri ilə məşğuluq, Ermənistanda isə böhran getdikcə dərinləşir. Məğlub duruma düşən Ermənistanda birbirlərini günahlandırır, anarxiya hökm sürür, iqtisadiyyat isə daha da tənəzzül etməkdədir.

Doğma Azərbaycanımız günü-gündən tərəqqi edir, əhalimizə, ilk növbədə şəhid ailələri və müharibə əlillərinə olan qayğı prioritet istiqamət olaraq diqqət mərkəzində saxlanılır.

***Qadir Əkbərov,***
***Qobustan rayon Gənclər və İdman İdarəsinin rəisi***

# Türk dünyasını birləşdirən dəhliz

***Tarixə şanlı Vətən müharibəsi kimi həkk olmuş II Qarabağ müharibəsində qazanılmış Qələbə tək Azərbaycan deyil, bütün region üçün böyük imkanlar açmışdır.***

Ermənistanın kapitulyasiya aktı kimi qəbul edilən 10 noyabr bəyanatında tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir. Beləliklə, yaradılacaq Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirməklə yanaşı, həm də Azərbaycanın milli, tarixi və gələcək maraqlarına tam cavab verir.

Qələbə ilə başa çatmış Vətən müharibəsi Zəngəzur dəhlizinin açılması üçün hüquqi əsasları yaratmışdır. Azərbaycan, Rusiya və Ermənistan arasında 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanat və 2021-ci il 11 yanvar tarixində Moskvada imzalanmış 4 bəndlik bəyanat Zəngəzur dəhlizinin reallaşması üçün hüquqi zəmin yaratmışdır. Qələbədən sonra ermənilər pozuculuq fəaliyyətlərini davam etdirir, yeni təxribatlara əl atırdılar. Azərbaycan tərəfi təmkinli davranmış, hadisələri nəzarətdə saxlamaqla, lazım gəldikdə erməni şovinistlərini yerində otuzdurmuş, onları qəbul edilmiş bəyanatların bütün maddələrinə əməl etməyə məcbur etdirmişdir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 20 aprel tarixində Azərbaycan Televiziyasına müsahibəsində demişdir: "Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik."




Zəngəzur tarixi Azərbaycan torpağıdır, Qarabağ xanlığının bir hissəsi olmuşdur. XIX əsrin əvvəllərində çar Rusiyası Azərbaycan xanlıqlarını zəbt etdi və Yaxın Şərq ölkələrindən yüz minlərlə erməni tayfaları bu ərazilərə köçürüldü. 1918-ci ilin may ayında azadlığa qovuşmuş Azərbaycan Demokratik Respublikası tarixi zərurətdən qədim İrəvan şəhərini və ətrafını ermənilərə güzəştə getməyə məcbur oldu. 1920-ci ildə, müstəqil Azərbaycanın süqutundan sonra, bolşevik Rusiyası dünya tarixində misli görünməmiş xəyanətə əl atdılar, Zəngəzur mahalının qərb hissəsi Ermənistana verildi və beləliklə Azərbaycan 2 hissəyə bölünmüş oldu, paytaxt Bakı olmaqla əsas hissə və Naxçıvan vilayəti. Buna görə də Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək Zəngəzur dəhlizi ideyasının böyük əhəmiyyəti vardır. Zəngəzur dəhlizi ideyası Azərbaycan tərəfinin XX əsrin 70-ci illərindən xüsusi diqqətində olub. 1970-80-ci illərdə Ulu Öndər Heydər Əliyev Siyasi Büronun üzvü olan zaman inşasına başlanılan Mehridən keçən Naxçıvan-Bakı avtomobil yolu Ermənistan tərəfinin etirazlarından sonra dayandırılmışdı. Bu yaxınlarda erməni mediası qeyd edir ki, bu yol "türklərin Böyük Turan layihəsinin icrasına zəmin hazırlamaq məqsədi daşıyırdı". 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər bu layihəni gerçəkləşdirməyə əsas yaratdı. Beləliklə, Prezident İlham Əliyev Şuşanın azad olunmasında olduğu kimi, Ulu Öndərin müəyyən etdiyi strateji hədəf olan Zəngəzur dəhlizini bərpa etməklə də ata vəsiyyətini yerinə yetirmiş oldu.

Zəngəzur dəhlizinin əhəmiyyətini Prezident İlham Əliyev hələ 2009-cu il 3 oktyabr tarixində Naxçıvanda keçirilmiş Zirvə görüşündə açıqlamışdı. SSRİ yaradılarkən Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi, bütün türk dünyasının coğrafi parçalanması idi. Bu mənada Zəngəzur dəhlizinin açılması türk dünyasının coğrafi birləşməsi olacaqdır, qədim Azərbaycan torpağı olan Zəngəzur türk dünyasını birləşdirən körpü rolunu oynayacaqdır. Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr, o cümlədən Ermənistan üçün əlavə imkanlar yaradacaq.

Prezident İlham Əliyevin həyata keçirdiyi nəhəng layihələr təkcə Azərbaycanın deyil, bütün türk dünyasının tərəqqisinə xidmət edir, bu da onun ümumtürk miqyaslı müdrik lider olduğunu göstərir. Onun təşəbbüsləri türk dünyasının və Avrasiyanın mühüm hissəsinin yeni logistik və iqtisadi əsaslarda birləşməsini nəzərdə tutur. Süveyş kanalı ilə bağlı yaşananlar isə Zəngəzur dəhlizinin dünya üçün də əhəmiyyətini bir daha qabarıq şəkildə üzə çıxardı.

Doğrudan da, Zəngəzur dəhlizinin regional və beynəlxalq əhəmiyyəti çox böyükdür, kommunikasiyaların açılması, Zəngəzur dəhlizinin bərpa edilməsi nəticəsində regionun mənzərəsinin, geosiyasi konfiqurasiyanın dəyişəcəyi göz qabağındadır. Təsadüfi deyildir ki, bu haqda istər regional, istərsə də regionda marağı olan Qərb, ərəb dövlətləri və hətta Çin informasiya vasitələrində çoxsaylı yazılar dərc edilir.

Artıq region ölkələri Zəngəzur dəhlizinin bölgə və beynəlxalq yükdaşımalarında mühüm həlqə olacağını qəbul etmişlər. Azərbaycan isə, hələ müharibənin gedişində və müharibədən sonra ilk günlərdə belə əməkdaşlıqda maraqlı və hazır olduğunu dəfələrlə bəyan etmişdi. Cənab Prezident İlham Əliyev qeyd edirdi ki, Azərbaycan regionun bütün dövlətləri ilə ikitərəfli və çoxtərəfli platformalarda sıx əməkdaşlıq edir, müharibədən sonra Ermənistanın da bu platformalarda təmsil olunmasında maraqlıdır. Beynəlxalq yükdaşımaları uğrunda rəqabət getdiyini vurğulayan Prezident İlham Əliyev, Zəngəzur dəhlizinin ölkəmiz və eləcə də region üçün əhəmiyyətini və bu fürsətdən istifadə edilməsinin zəruriliyini göstərmişdir. Zəngəzur dəhlizinin açılması, təkcə regional əməkdaşlıq və yükdaşımaları ilə bağlı rəqabət üzərində deyil, həm də milli hədəfdir, bununla xalqımız 101 il bundan əvvəl bizim əlimizdən alınmış tarixi Zəngəzura qayıdacaqdır. Gənc nəsil bilməlidir ki, İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalları tarixi Azərbaycan torpaqlarıdır, bunu unutmaq olmaz və gələcək fəaliyyətlərdə bu istiqamətlərdə də işləmək lazımdır.

Prezident İlham Əliyevin son çıxışları dünya mətbuatının diqqət mərkəzindədir, hətta bəzi dairələr bu çıxışları sərhədlərin dəyişdirilməsi, yenidən cızılması kimi dəyərləndirirlər. Cənab Prezident ADA Universitetində keçirilmiş görüşdə "Mən demədim ki, biz oraya tank üzərində qayıdacağıq. Biz Zəngəzur dəhlizinə qayıdıb orada yoldan istifadə edəcəyiksə, niyə biz İrəvana qayıtmayaq?" deməklə tarixi torpaqlara qayıdış strategiyasının "yol xəritəsi"nin necə olacağına işarə vurmuşdu. Azərbaycan tarixi Zəngəzura investisiya layihələri, təzminat və digər iqtisadi rıçaqlarla qayıdır, bölgəyə sülh, əmin-amanlıq, iqtisadi tərəqqi gətirir.

Cənab Prezident İlham Əliyevin çıxışlarında ölkədaxili siyasi opponentlərə də ciddi mesajlar verilmişdir, qarşıda daha böyük milli-tarixi hədəflər vardır. Hədəflərə nail olmaq üçün, milli ideyalar naminə Vətən müharibəsində ortaya qoyulmuş birliyin davam etdirilməsi vacibdir.

***Qadir Əkbərov,***
***Qobustan rayon Gənclər və İdman İdarəsinin rəisi***

## Deputat Şahin Seyidzadə "Heydər zirvəsi"də bayrağımızı dalğalandırdı



***Azərbaycan Respublikası Milli Məclisinin 50 saylı Abşeron-Qobustan seçki dairəsi üzrə deputatı Şahin Seyidzadə "Heydər zirvəsi"nə qalxıb.***

Quba rayonu ərazisində yerləşən "Heydər zirvəsi"nə yürüş edərək, bayrağımızı dalğalandıran deputat Şahin Seyidzadə bu barədə öz sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımı sizə təqdim edirik:

*"Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibəti ilə Quba rayonunun Şahdağ Milli parkının ərazisində olan "Qızıl Qaya" silsiləsində yerləşən "Heydər zirvəsi"də şanlı Azərbaycan bayrağını dalğalandırdıq."*



## Heydər Əliyev Fondunun təşəbbüsü ilə xalçaçılıq emalatxanasına 30 nəfər gəncin ekskursiyası təşkil olunmuşdur

***Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 25 noyabr 2016-cı tarixli Sərəncamı ilə hər il may ayının 5-i Azərbaycan Respublikasında "Xalçaçı Günü" peşə bayramı kimi qeyd olunur.***



Bu məqsədlə Qobustan rayon Gənclər və İdman idarəsi,Qobustan Gənclər Evi kollektivi və bir qrup gənc könüllülərimiz "Azərxalça" ASC-nin Qobustan filialına səfər etmişlər. Xalçaçılıq sənəti əsrlərin yadigarı olan milli sərvətimizdir.

Ümummilli lider Heydər Əliyevin də dediyi kimi: "Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu gündür".



# Sosial gözəlliklərlə təmin olunan Ərəbqədim



***Əzəmətli, vüqarlı Gicəki dağına arxalanıb, onun ətəklərndə yurd-yuva quran, qədim-qayım bir kənd var... Ərəbqədim. Ulu keçmişdən bu günə qədər keşməkeşli yollar keçən, yaşı, tarixi illərlə hesablanmayan, şeirlə, sözlə ölçüsü-biçisi bitib -tükənməyən məğrur kəndim.***

Tarixən bu kənd şirin arzularla yaşayıb. Belə ki, Ərəbqədim kəndi hələ Sovetlər dönəmində sosial problemlərlə üzləşmişdir. Belə bir deyim var: "Su həyatdır" . Bir bulağı, şəlaləsi, çayı , adi su arxı axmayan bu kənd illərlə, əsrlərlə "susuz həyat" yaşadı. Göylərin aramlı yağışlarından, ara-sıra uzaq kəhriz və bulağından qətrə-qətrə , qənaətlə içib təşnəsini söndürürdü, dözürdü. İçmək üçün suyu qonşusundan belə borc alaraq yaşayırdı. Bu dözümü ona, vətənə, torpağına, yurduna olan sonsuz sevgi öyrətdi.

Tarixin yollar yorğunu olan bu elat "Yoruldum, bezdim" sözlərini dilinə belə gətirmədi.

Sovet İttifaqı süquta yetəndə bu el-obanın Ərəbqədim kəndinin abadlaşmasına inamı, ümidi qalmadı. Köçhaköç başladı. Kənd seyrəldi. Ürəklər kövrəldi, gözlər doldu.

***Qopmasından evlərdən bir taxta, bir daş Allah, Eyyub kəndi dağılmaya kaş.***

Nəhayət tale Ərəbqədimin üzünə güldü. Azərbaycan müstəqillik qazandı. Onun qurucusu, memarı, dahi Ulu öndər Heydər Əliyev oldu. Bu müstəqillikdən Ərəbqəm də bəhrələndi. Kəndə qaz xətti çəkildi. Ocaqlar mavi alovla işıqlandı, nurlandı. Bu işdə Hacı Abdullah Mustafayev, Hacı Əlişah Dəmirov xüsusi fəallıq göstərdilər. 2013-cü ilin oktyabrında Ərəbqədimin qapısını toy-bayramlı bir möcüzə döydü. Ağıla gəlməyən arzu həqiqətə çevrildi. Kəndə su xətti çəkilişinin açılışı oldu. Bu Ulu öndər Heydər Əliyev ideyalarını uğurla həyata keçirən, onun siyasi kursunun layiqli davamçısı İlham Əliyevin elinə, obasna -bir sözlə, xalqına qayğısının real , bariz nümunəsi idi. Qobustan rayon İcra Başçısı Adil Məmmədovun da bu işdə xüsusi zəhməti oldu. 2019-cu il 7 may tarixində cənab Prezidentimiz İlham Əliyev Qobustan rayonuna səfər etdi. Bu səfər zamanı möhtərəm prezident Ərəbqədim-Göydərə mağistral yolunun asfatlanması ilə bağlı sərəncam verdi. Sərəncama uyğun olaraq yolun çəkilişinə başlanıldı. Bu iş möhtəşəm , qeyri-adi hadisə idi. Yolun çəkilişi ilə bağlı iş gedərkən, II Qarabağ müharibəsi başladı. Bütün Ərəbqədimlilər Azərbaycan xalqının zərrəsi kimi vətənin müdafiəsinə qalxdı. Ali Baş Komandanın "Qarabağ Azərbaycandır" çağırışına hay verdi. Allaha sonsuz şükürlər olsun ki, Qarabağ və digər rayonlarımız işğaldan azad olundu. Müharibə gedən vaxtlarda ərəbqədimlilər düşündülər ki, hərbi vəziyyətlə əlaqədar yolun çəklişi dayanacaq. Biz ərəbqədimlilər dedik ki, vaxtı ilə susuzluğa, yolsuzluğa dözmüşük yenə də dözərik. Yetər ki torpaqlarımız işğaldan azad olunsun.Mənfur düşmənlərimiz torpaqlarımızdan qovulsun . Belə də oldu Ali Baş Komandan İlham Əliyevin ordusu qalib gəldi. Yolun çəkilişi ilə bağlı düşüncələrimiz əksinə olaraq, işlər dayanmadı. Ərəbqədim-Göydərə asfalt yolu yüksək səviyyədə çəkilib, kənd sakinlərinin istifadəsinə verildi. İndi qaz, işıq, su, yol kimi sosial problemləri olmayan Ərəbqədim Qarabağın qələbə sevincini yaşayır. Sosial gözəlliklərlə təmin olunan Ərəbqədim bütün bunlara görə Ali Baş Komandan İlham Əliyev cənablarına, Azərbaycan dövlətinə, eləcə də Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədova sonsuz təşəkkür bildirir.

*..Azad Azərbaycan aydın səmalı*  
*Dönüb ümmanlara coşqun kamalı,*  
*Qalib gəldi Heydər, İlham amalı,*  
*Cahan dillənməyə sözü qalmadı.*

***Qobustan rayon M.Sahibov adına***  
***Ərəbqədim kənd tam orta məktəbin***  
***dil-ədəbiyyat müəllimi,***  
***şair-publisist Mehman Rəcəbov***

# Qobustan gəncləri Hərbi Qənimətlər Parkında

***20 may 2021-ci il tarixdə Qobustan rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı və Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2017-ci il 15 sentyabr tarixli, 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının 5.1.3 yarımbəndinin icrasını təmin etmək məqsədi ilə, "Hərbi Qənimətlər Parkı"na ekskursiya təşkil edilmişdir.***

Ekskursiyada karantin qaydalarının tələb və tövsiyələrinə əməl olunmaqla İdarənin təşkil etdiyi online müsabiqələrdə qalib gələn bir qrup fəal və könüllü gənc iştirak etmişdir.

Qeyd edək ki, 5 km ərazini əhatə edən "Hərbi Qənimətlər Parkı" Bakı şəhəri Xətai rayonunda yerləşir. Park Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 27 sentyabr - 10 noyabr 2020-ci il tarixlərində 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan ordusunun işğalçı Ermənistanı döyüş meydanında məğlub etməsi nəticəsində düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin və Ermənistan ordusu tərəfindən qurulmuş müdafiə sədlərinin nümayiş olunması məqsədini daşıyır.

Parkda 57 ədəd zirehli texnika, 30 ədəd artilleriya silahı, 49 ədəd avtomobil texnikası, 2 ədəd qoşqu, 2 silah-sursat eksponatlar sərgisi (sərginin birində 15 növ, digərində 27 növ silah-sursat var), o cümlədən Azərbaycan Silahlı Qüvvələrinin azad olunan ərazilərdən qənimət götürdüyü 2 mindən çox avtomobil nömrə nişanları sərgilənir.

Parkın ərazisində xüsusi yaradılmış povilyonlarda bunker, müdafiə mövqeyinin ibarət olduğu bütün otaqlar, atəş nöqtələri, saxlanclar, tunellər, səddlər və səngərlərlə tanış ola, hərbi çadır altında qurulan "Kinozal" otağında Vətən müharibəsinə aid videoçarxlar və qısametrajlı filmləri izləyə, suvenir satışı məntəqəsindən isə xatirə üçün Vətən müharibəsinə aid suvenirlər və hərbi geyim əşyaları əldə edə bilərsiniz.

# Siyasi partiyaların mövqeyi

***Azərbaycanda fəaliyyət göstərən 48 siyasi partiya aprel ayının 24-də ABŞ Prezidenti Cozef Baydenin erməni anım günü münasibətilə qondarma "erməni soyqırımı" məsələsi ilə bağlı mövqeyinə dair bəyanat yaymış, 1915-ci il hadisələri ilə bağlı tarixi həqiqətlərin təhrif olunmasını qətiyyətlə pisləmişlər.***

Bütün sənədlər və faktlar sübut edir ki, əslində I Dünya müharibəsinin gedişində ermənilər yox, türklər soyqırımı aktına məruz qalmışlar. 1915-ci ilin əvvəllərində Türkiyənin şimali-şərq bölgələrinin erməni əhalisi Osmanlı dövlətinə qarşı müharibəyə, türklərə qarşı kütləvi qırğınlara başladı. Bunun cavabında Osmanlı dövləti erməni əhalisinin o ərazilərdən kütləvi şəkildə köçürülməsi barədə əmr verdi. Erməni dönüklüyünü zərərsizləşdirmək üçün Osmanlı dövləti onları Ərzurum, Qars, Van və digər ərazilərdən cənuba - Suriya sərhədlərinə köçürməyə məcbur olmuşdu. Xain xisləti ermənilər sonralar, o zamankı hadisələrdən "erməni soyqırımı"nın törədilməsi adı altında öz məqsədləri üçün istifadə etmişlər və indi də istifadə etməkdədirlər. Əslində, Türkiyə vətəndaşı olan ermənilər xainlik edərək ruslar tərəfindən türklərə qarşı vuruşmuş, öz vətənlərinə xəyanət etmişdilər. Burada məğlub olan mənfur erməni silahlıları Cənubi Qafqaza soxularaq, bu ərazilərdə azərbaycanlılara divan tutmağa başladılar. 1918-ci ilin martına qədər təkcə İrəvan quberniyasında 199 azərbaycanlı kəndi dağıdılmışdı. Bu ərazidə yaşayan azərbaycanlıların bir qismi ermənilər tərəfindən qətlə yetirilmiş, qalanları isə Osmanlı ordusunun nəzarət etdiyi ərazilərə qaçmağa məcbur olmuşdular. Qərbi Azərbaycanda azərbaycanlıların soyqırımı 1920-ci ilə qədər davam etmişdi. Cənubi Azərbaycanda da eyni vəziyyət idi. Xoy, Urmiya, Mərənddə bir neçə gün ərzində 80 min türk-müsəlman əhalisinin həyatına son qoyuldu. Erməni-daşnak qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi 1918-ci il mart soyqırımı xüsusi qəddarlıqla həyata keçirilmişdi. Bakı şəhərində azərbaycanlıların qırğını nəticəsində 12 min dinc sakin qətlə yetirilmiş, on minlərlə insan didərgin salınmışdı. Quba qəzasında 172, Şamaxıda isə 72 kənd yandırılaraq külə çevrilmişdi. Erməni quldurları bununla kifayətlənməmiş digər bölgələr, Naxçıvan, Lənkəran, Salyan, Göyçay, Xaçmaz qəzalarında da qırğınlar törətmişdilər.

Həmçinin, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhəri Ermənistan silahlı dəstələri tərəfindən zəbt olunmuş və soyqırımı törədilmişdir. Xocalı soyqırımı nəticəsində çoxu uşaq, qadın, qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirilmiş, 150 nəfər isə itkin düşmüşdür.

Erməni silahlı dəstələrinin törətdikləri soyqırımları, dinc əhaliyə qarşı etdikləri vəhşilikləri sadalamaqla bitirmək olmaz. Lakin bütün bu tarixi faktlara baxmayaraq, Amerika Birləşmiş Ştatları tərəfindən hələ də ədalətli qiymətin verilməməsi qərəzlilik və ikili standart nümunəsidir.

1991-ci ildə Ermənistan müstəqillik əldə etdikdən sonra "soyqırım ideoloqları" fikirləşdilər ki, müasir Türkiyə dövlətindən təzminat qoparmaq və ərazi iddiası irəli sürmək üçün "soyqırım" illərini uzatmaq lazımdır. Məhz bundan sonra "1915-1923-cü illərdə ermənilərə qarşı soyqırım" ideyası dövriyyəyə buraxılmışdır. Ermənilərin uydurma erməni soyqırımı tarixinin 1923-cü il də daxil olmaqla uzatmalarında məqsədləri müasir Türkiyə Cümhuriyyətini suçlamağa hüquqi əsas əldə etməkdən, ondan maddi təzminat qoparmağa nail olmaqdan, ona qarşı ərazi iddiası irəli sürməkdən ibarətdir.

Rəsmi Ankara dəfələrlə bildirmişdir ki, "erməni soyqırımı" ideyası bir araşdırma mövzusu kimi siyasətçilərin deyil, tarixçilərin müzakirə predmetidir. Türkiyə dəfələrlə bəyan edib ki, bu cəfəngiyyata son qoyulması üçün tərəfsiz ortaq komissiya yaradılsın və həmin komissiya istər Türkiyədə, istərsə də xarici dövlətlərin arxivlərində olan sənədləri araşdıraraq yekun nəticəyə gəlsin. Lakin erməni tarixçiləri istinad etdikləri "sənədlərin" saxta olmasının sübut olunacağından qorxaraq belə bir komissiyanın yaradılmasına həmişə mane olmuşlar.

Çox təəssüf ki, ikili standartlar dünyasında Türkiyənin haqq səsi deyil, ermənilərin yalanları daha çox ayaq açıb yeriyir. Dünyanın bir çox ölkələri uydurma erməni soyqırımının tanınması haqqında qərar qəbul etmişlər. ABŞ-ın 50 ştatından 43-ü artıq uydurma soyqırımı tanımışdır və aprelin 24-ü soyqırım qurbanlarının xatirəsinin anım günü elan edilmişdir. 1970-ci illərin sonlarından etibarən hər il aprelin 24-də ABŞ prezidentləri televiziya ilə ermənilərə müraciət edirlər. Erməni lobbisi hər il çalışırdı ki, ABŞ prezidentinin "soyqırım" ifadəsini işlətməsinə nail olsun. Nəhayət, bu ilin aprel ayının 24-də ABŞ-nın yeni Prezidenti Co Bayden qondarma "erməni soyqırımı" mövzusunu siyasiləşdirərək, erməni soyqırımı ifadəsini işlətdi. Əslində C.Baydenin bu hərəkəti təkcə məsuliyyətsizlik deyil, tarixi faktlar, materiallara hörmətsizlikdir, tarixi inkar etməkdir. Yaxşı olardı ki, ABŞ və digər güc mərkəzləri Ermənistanı məcbur edəydi ki, "erməni soyqırımı" ilə bağlı bütün arxivləri tarixçilərin üzünə açsın, əsil həqiqətlərin ortaya çıxmasına yardım etsinlər. Erməni rəsmiləri və onların havadarları yaxşı bilirlər ki, bu halda tarixi həqiqət üzə çıxacaq, "erməni soyqırımı"nın yalan və böhtandan ibarət olduğu bilinəcəkdir. Həqiqətin üzə çıxmasını istəməyən erməni rəsmləri iddia edirlər ki, guya beynəlxalq aləmin "aksiom kimi" qəbul etdiyi "erməni soyqırımı"nın hər hansı müzakirəyə ehtiyacı yoxdur və Türkiyə tərəfi özündə iradə tapıb bu "cinayəti" etiraf etməli və onun nəticələrinə qatlaşmalıdır. Türkiyənin isə baş verməyən bir cinayəti öz üzərinə götürməsi absurddur və o, ermənipərəst dövlətlərin və ikili standartlarla çıxış edən beynəlxalq qurumların təzyiqinə cavab verməli iqtidarındadır.

Bütün bunları nəzərə alaraq Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların bu gün qardaş ölkə Türkiyəni dəstəkləməsi və ABŞ prezidenti Cozef Baydenin qondarma "erməni soyqırımı" bəyanatını qətiyyətlə pisləməsi Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə münasibətlərinə əvəzsiz töhfədir.

***Müslüm Xanaliyev,***  
***Qobustan rayon***  
***UGİM-nin direktoru***

# Nikbin Azərbaycan qazisi



***Otuz illik həsrətdən sonra ana Azərbaycanıma balatək qovuşan can Qarabağım!.***

*Azad Azərbaycan, Qarabağ olsun!*
*Neçə şəhid verdin başın sağ olsun!*
*Mərd oğul, qızının üzü ağ olsun!*
*Vətən! Gözün aydın zəfər çalındı!*
*Qarabağ qayıtdı, qisas alındı!*

Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevin tarixi bir kəlamı hər bir azərbaycanlının, Azərbaycansevərin düşüncəsinə, idrakına haqq oyanış təkanı verdi: "Qarabağ Azərbaycandır" 44 günlük II Qarabağ savaşı, Böyük Vətən Müharibəsi .. Minlərlə könüllü Vətən övladı Ali Baş Komandan İlham Əliyevin sərkərdə çağırışına hay verib, silaha sarılıb ön cəbhəyə yola düşdü, düşmənlə ölüm-dirim savaşına girişdi. Ölümün gözünə dik baxmağı bacaran Azərbaycan əsgəri qəlbində olan böyük Vətən sevgisi ilə hər şeyə yox dedi. O, fərdi tale yaşamadı ; Xalq üçün, Vətən üçün yaşadı. Budur Vətənə, xalqa müasir sədaqətin bənzərsiz, canlı nümunəsi.

Azadlıq və mübarizə üçün candan keçmək ehtiyacı var. Belə bir məqamda Vətənimizin ayrılmaz hissəsi olan Qobustan elatı da bu mübarizədə kənarda qalmadı. Qobustan şəhərinin özündən tutmuş hər bir kəndinədək yüzlərlə könüllü Hərbi Komisarlığa müraciət etdi, döyüş bölgəsinə -Qarabağ savaşına yola düşdü. Qarabağın saf və gözəl təbiətinə vandallıq üfunəti yayan, şərəfsiz , xəyanətkar, yırtıcı düşmən qadağan olunmuş silahlardan vəhşicəsinə isifadə etdi. Qanlı döyüşlərdə odalov ölüm saçan silahlara qarşı Azərbaycan əsgəri ömrünü, canını səngərə sipər etdi.

*O dərə həmən dərə,*
*Çiçəkli çəmən dərə,*
*Azərbaycan əsgəri!*
*Vətənçin od-alovda*
*Döndüz Səməndərə..*

Hər anı, saniyəsi əsrlərə bərabər olan 44 günlük Vətən müharibəsi XXI əsrin möhtəşəm qələbəsi ilə nəticələndi. Azərbaycan torpaqları işğaldan azad edildi. Əksəriyyəti 1993-2002-ci illərdə anadan olan, ağlı kəsəndən sonra yalnız Qarabğın adını eşidən , "gün o gün olsun Qarabaş düşmən işğalından azad edilsin" duaları qulaqlarında hey səslənən, genetik yaddaşımızda, "manqurtlaşma " siyasəti aparan məkrli düşmənin niyyəti puça çıxaran Azərbaycan əsgəri 44 günlük müharibədə ölümdən qorxmamaq faktı ilə vətənə olan sonsuz sevgisini dünyalara dahiyanə bir örnək kimi nümayiş etdirdi.

*..Mete xandan dərslər alıb gəlirdi,*
*Hardan hara getdiyini bilirdi,*
*Əyan idi sevinirdi gülürdü*
*Azəri yurdunun şəhid əsgəri*

Ulu dünəni və müasir bu günü, gələcəyi arasında qəhrəmanlıq əlaqəsinin qırılmaz tellərlə bağlı olduğunu real mübarizə müstəvisində əməli şəkildə ifadə etməyi bacaran nümunəvi sevgili vətəndaş rəftarına malik olan Azərbaycan əsgəri özünün, eləcədə mənsub olduğu Azərbaycan xalqının hörmət və nüfuzunu göylərə qaldırdı.

Elə bu məqamda Bütün Azərbaycan əsgərlərinin timsalında bir qazi əsgər əsgərdən söz açmaq istəyirdim . Qazi Rəcəbli Ramil Bəyalı oğlu. Bu il iyun ayının 2-də onun doğum günü idi. İndi onun 27 yaşı var.

Rəcəbli Ramil 1995-ci il iyunun 2-də Ərəbqədim kəndində anadan olub, orda böyüyüb boya-başa çatmışdır. M.Sahibov adına Ərəbqədim kənd tam orta məktəbində təhsil alıb. 2013-2015-ci illərdə Azərbaycan Milli Ordusunda hərbi xidmətdə olub. Evdə, kənddə, məktəbdə, sözün həqiqi mənasında hörmətli bir gənc kimi tanınıb. Çətin məqamda belə saf mənəviyyatını qoruyub saxlamağı bacarıb. Böyük Vətən Müharibəsi başlayanda könüllü olaraq döyüşlərə qatılıb. Füzuli, Talış kəndi, Suqovuşanın azad olunması uğrunda gedən ağır döyüşlərdə iştirak edib. Aldığı güllə yarasından sonra evinə Qazi kimi dönmüşdür. Aldığı yaralardan bədbinləşməyən qazimiz əksinə daha da nikbinləşmişdir. Bir an belə olsun şəhidlərimizi, Vətəni, qazilərimizi unutmayan Ramil Qarabağ savaşında olduğu üçün, zərrə qədər olsa da bu qələbədə payı olduğu üçün, qürür duyur. Özünü daima Azərbaycan əsgəri kimi sanır, Vətənin müdafiəsinə bundan sonra da hazır olduğunu deyir.

Adını tarixə qızıl hərflərlə yazan, hünər və rəşadətləri sözə, şeiriyyətə sığmayan Azərbaycan əsgəri, qazi Ramil Rəcəbli doğum günü mübarək! Biz Azərbaycan xalqı da səni bu ad günün münasibətilə təbrik edir sənə uzun ömür can sağlığı arzulayırıq.

*Qazi, Şəhidinə saf ehtiramı,*
*Duaçı, təbrikli Vətən, el -hamı*
*Vətəndaş bayramı, Vətən bayramı..*
*Ad günün-fəxarət günündür bu gün!*
*Şad günün -ləyaqət günündür bu gün!*
*Ad günün-fəxarət günündür bu gün!*

***

*O gün ki, doğuldun , Vətən sevindi,*
*Dedin: Sınaqlara yurdu sev indi,*
*Qarabağ qayıtdı , qazim , sevin di!*
*Vətənə məhəbbət günündür bu gün,*
*Ad günün-fəxarət günündür bu gün!*
*Şad günün -ləyaqət günündür bu gün!*

***

*Əsgər silahlanar, əsgər geyinər,*
*Əsgərlə vətəni, xalqı öyünər..*
*Vətən eşqilə qəlbin döyünər,*
*Vətənə sədaqət günündür bu gün!*
*Ad günün-fəxarət günündür bu gün!*
*Şad günün -ləyaqət günündür bu gün!*

***

*Xalqımın qovğası haqq alın yazım,*
*Müqəddəs bayraqlı , Qələbəm, arzum.*
*Şəhidlər şahidi yaralı qazim*
*Hünərli rəşadət günündür bu gün!*
*Ad günün-fəxarət günündür bu gün!*
*Şad günün -ləyaqət günündür bu gün!*
*De, Mehman , zirvədə görünər dağlar,*
*Qartallar qıy vurar, zirvədə çağlar,*
*Tarix ərənlərin zirvədə saxlar,*
*Əzəl-əbədiyyət günündür bu gün!*
*Ad günün-fəxarət günündür bu gün!*
*Şad günün -ləyaqət günündür bu gün!*

***Qobustan rayon M.Sahibov adına Ərəbqədim kənd tam orta məktəbin dil-ədəbiyyat müəllimi, şair-publisist Mehman Rəcəbov***

# Şəhidi Əliyev Rauf İlyas oğlunun xatirəsinə hazırlanmış barelyefin açılışı

26 may 2021-ci il tarixdə İsmayıllı Regional Mədəniyyət İdarəsinin tabeçiliyində fəaliyyət göstərən Qobustan şəhər R.Behbudov adına Uşaq İncəsənət məktəbinin müəllimi,Vətən müharibəsi şəhidi Əliyev Rauf İlyas oğlunun xatirəsinə hazırlanmış barelyefin təqdim edilməsi mərasimi keçirildi.Tədbirdə Qobustan rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov,Millət vəkili Şahin Seyidzadə,İsmayıllı Regional Mədəniyyət İdarəsinin rəisi Elçin Nəcəfov və rayon ictimaiyyətinin nümayəndələri iştirak etdi. Vətən uğrunda şəhid olan bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra,xatirə barelyefinin açılış mərasimi qeyd olundu.

Əliyev Rauf İlyas oğlu 11 fevral 1993-cü il tarixdə Şamaxı şəhərində anadan olmuş,2008-2012-ci illərdə isə S.Hacıbəyov adına Sumqayıt Musiqi Kollecində tar ixtisası üzrə təhsil aldıqdan sonra,2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.27 sentyabr 2020-ci il tarixdə başlayan Vətən müharibəsi zamanı Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edərək,sentyabrın 30-da Talış yüksəkliyi istiqamətində gedən döyüşlər zamanı şəhid olmuşdur.Azərbaycan Respublikasının Prezidenti cənab İlhan Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və " Laçının azad olunmasına görə"medalları ilə təltif edilmişdir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!







# Cənnətdəki ilk doğum günün mübarək, nur üzlü Şəhidimiz Elxan Bədəl oğlu Məmmədov!




***Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda Vətən Müharibəsində qəhrəmancasına şəhid olan Məmmədov Elxan Bədəl oğlunun doğum günü məzarı önündə qeyd olundu.***

Məmmədov Elxan Bədəl oğlu 15.05.1998-ci ildə Qobustan rayonu Cəyirli kəndində anadan olmuşdur.Orta təhsilini Cəyirli kənd tam orta məktəbində almışdır. Elxan Məmmədov 2016-2018-ci illərdə Azərbaycan Ordusunun sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Azərbaycan Ordusunun əsgəri olan Elxan Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elxan Məmmədov oktyabrın 11-də Füzuli döyüşləri zamanı ağır yaralanıb və 18 gün xəstəxanada müalicə aldığdan sonra oktyabrın 29-da şəhid olub. Qobustan rayonu cəyirli kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elxan Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

44 günlük Vətən müharibəsində şanlı Qələbəmiz, Ali Baş Komandanımız İlham Əliyevin dediyi kimi, igid əsgər və zabitlərimizin canı-qanı bahasına əldə olundu. Minlərlə can qurban oldu ki, müqəddəs Vətən torpağı yağı əsarətindən qurtulsun. Şəhidlərimizin başımız üzərindəki müqəddəs ruhları qanadlı mələyə çevrilib böyük sevgi ilə dolanır azad olan torpaqlarımızda.

Ruhları qarşısında baş əyirik!



# 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfərdə gənclərin rolu böyükdür

***44 günlük Vətən müharibəsi torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən Azərbaycan xalqının milli həmrəyliyi və birliyinin bariz nümunəsidir.***

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasəti nəticəsində vəzifəsindən, sosial statusundan, milli-etnik və dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaş Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ətrafında səfərbər olaraq qələbəmizə öz töhfəsini verdi.

Azərbaycan dövləti gənclərə hər zaman malik olduqları bacarıq, qabiliyyət və intellektual imkanlar müqabilində daim böyük diqqət və xüsusi qayğı ilə yanaşır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən gənclər siyasəti nəticəsində onların cəmiyyət həyatının bütün sahələrində iştirak edən güclü sosial təbəqəyə çevrilməsi yolunda mühüm addımlar atır.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə Azərbaycan gənclərinin 1-ci forumu 1996-cı il 2 fevral tarixində keçirilmişdir. 1997-ci ildən başlayaraq isə Heydər Əliyevin sərəncamı ilə 2 fevral tarixi ölkəmizdə "Gənclər Günü" kimi qeyd olunur. Dövlət gənclər siyasəti ilə bağlı uğurla icra olunan bir sıra mühüm dövlət proqramları və tədbirləri qeyd etmək olar ki, bütün bunlar da gənclərimizin Vətənə bağlı, intellektual cəhətdən yüksək, dünyagörüşlü bir təbəqə kimi formalaşmasında mühüm rol oynamışdır. Belə ki, Ulu öndər Heydər Əliyev tərəfindən qəbul edilən 2005-2009-cu illərdə gənclər proqramı, daha sonra Prezident İlham Əliyev tərəfindən qəbul edilən neft gəlirlərini "insan kapitalı"na çevirən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nı gənclərə özünütəsdiq imkanları yaratmışdır. Həmçinin, 2007-ci ili "Gənclər ili" elan etməklə, Prezident İlham Əliyev gənclərin inkişafına nə qədər böyük önəm verdiyini nümayiş etdirmişdir. Gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə İlham Əliyev tərəfindən 26 yanvar 2015-ci il tarixli " 2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" sərəncamı da təsdiq edilmişdir.

Azərbaycan gəncləri beynəlxalq əməkdaşlığın inkişafında da fəal rol oynayır. Azərbaycan diasporunun fəaliyyətində xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclər yaxından iştirak edirlər.

Uzun illərdir ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti keçən ilin mühüm tarixi hadisəsi olan Vətən müharibəsinin qələbəmizlə yekunlaşmasında öz sözünü dedi. 27 sentyabr 2020-ci il tarixdə Ermənsitan silahlı birləşmələri müxtəlif istiqamətlərdən və müxtəlif növ silahlardan istifadə etməklə, yeni ərazilər işğal etmək və təxribat törətmək niyyəti ilə hücuma keçdi. Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı yəni, Vətən müharibəsi başladı.

Azərbaycan Ordusunun tərkibi əsasən, gənclərdən ibarətdir. Vətən müharibəsi iştirakçılarının əksəriyyəti gənclər idi. Məhz, 44 günlük Vətən müharibəsi Azərbaycan gənclərinin vətənpərvərliyini, mərdliyini, əzmini bütün dünyaya nümayiş etdirdi. Ermənistan Respublikası tərəfindən dövlət sərhədinin Tovuz rayonu istiqamətində pozulması zamanı minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şöbələrində qeydiyyatdan keçmiş və Vətən müharibəsinin ilk günlərindən onların bir qismi döyüşlərə yollanmışdır. Azərbaycan gəncləri həm ön, həm də arxa cəbhədə düşmənə qarşı vuruşaraq, tarixi və əzəli torpaqlarımızın azad olunmasında öz sözünü dedilər. Bununla da, Azərbaycan gəncləri işğalçı Ermənistana qarşı yüksək vətənpərvərlik hislərinə malik olduğunu, mübarizliyini nümayiş etdirdi. Həmçinin, Prezident İlham Əliyev Azərbaycan gəncinin düşmənə dərs verdiyini xalqa müraciətlərindən birində belə bəyan etmişdir: "Bu gün də onların dövlətinin rəhbərləri gecə-gündüz yalan, uydurma yayırlar Azərbaycan haqqında, döyüş meydanında baş verən hadisələr haqqında. Sanki kimsə gəlib bizim əvəzimizə vuruşur. Azərbaycan xalqı, Azərbaycan gəncləri, Azərbaycan əsgəri onlara dərs verir. Təkbaşına vuruşuruq, hər kəs bunu bilir". Vətən müharibəsində canından keçərək şəhidlik zirvəsinə ucalanların böyük əksəriyyəti də məhz gənclərdən ibarətdir.

2020-ci il noyabr ayının 8-də Şuşanın işğaldan azad edilməsi xarici ekspertlər tərəfindən də heyrətlə qarşılandı. Bu heyrət Azərbaycan gənclərinin qələbəsinə, vətənpərvərliyinə, əzminə idi. Həmçinin, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev işğaldan azad edilmiş Şuşaya səfəri zamanı hərbçilərlə görüşəndə qələbənin tarixi əhəmiyyətini vurğuladı və qələbə qazananlara Vətən adından təşəkkürünü bildirdi. İlham Əliyev Şuşada çıxışı zamanı dedi: "Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi".

44 günlük Vətən müharibəsində qazanılan qələbə Azərbaycan xalqının bəşəri qələbəsidir. İşğalçı Ermənstan üzərində qazanılmış qələbə eyni zamanda Azərbaycan gəncliyinin qüdrəti kimi tarixə keçdi.

23 yanvar 2021-ci il tarixdə Azərbaycan Respublikasının Baş Prokurorluğunun videokonfrans rejimində təşkil edilmiş Kollegiya iclasında çıxış edən cənab Baş Prokuror Kamran Əliyev qeyd etmişdir ki, xilaskarlıqdan qalibiyyətə yüksələn zəfər salnaməsinin memarı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik siyasi kursun möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində uzun illərdən sonra ölkəmiz ərazi bütövlüyünü bərpa edərək inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuş, 44 günlük haqq savaşında qazanılan möhtəşəm qələbə Prezident İlham Əliyevin yenilməz qətiyyətini, ordumuzun qüdrətini və xalqımızın milli birliyini bir daha bütün dünyaya nümayiş etdirmişdir. Cənab Baş Prokuror tərəfindən xüsusilə vurğulanmışdır ki, 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn əsgər və zabitlərimizin ailələri, müharibə əlilləri və onların ailə üzvləri ali dövlət qayğısı ilə əhatə olunmaqla maddi-sosial problemlərinin aradan qaldırılması istiqamətində yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" fondunun yaradılması müstəsna əhəmiyyətə malik olmuşdur.

Vətən müharibəsi gedişində səfərbər olan prokurorluq orqanları səlahiyyətləri daxilində üzərlərinə düşən vəzifələri uğurla yerinə yetirməklə qanunsuz erməni birləşmələrinin törətdikləri hər bir cinayət faktı üzrə döyüş əməliyyatlarının aparıldığı şəraitdə zəruri istintaq hərəkətləri həyata keçirmiş, xain düşmənin beynəlxalq konvensiyalarda təsbit olunan müharibə qaydalarını kobud şəkildə pozaraq cəbhə zonasından kənarda yerləşən şəhərlərimizi və kəndlərimizi, infrastruktur obyektlərini raket zərbələri, o cümlədən qadağan olunan silahlarla atəşə məruz qoyması, namərd hücumlarla onlarla dinc sakinin qətlə yetirilməsi ilə bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanmaqla intensiv istintaq-əməliyyat tədbirləri aparılmışdır.

2021- il mayın 6-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş əməkdaşların təntənəli andiçmə mərasimi zamanı da Baş prokuror cənab Kamran Əliyev bildirmişdir ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda gəncliyin inkişaf yoluna işıq salmaqla gənclərin dövlət idarəçiliyində, bir sözlə, ictimai həyatın bütün sahələrində iştirak edən güclü sosial təbəqəyə çevrilməsini təmin etmişdir. Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə həyata keçirilən mütəmadi tədbirlər gənclərin təhsil, ailə, məişət, məşğulluq məsələlərinin həllində mühüm rol oynayaraq gəncliyin uğurlu gələcəyinə hesablanmışdır. Xüsusilə vurğulanmışdır ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilmiş siyasət nəticəsində uzun illərdən sonra ölkəmiz ərazi bütövlüyünü bərpa edərək inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuş, 44 günlük haqq savaşında qazanılan möhtəşəm qələbə dövlət başçısının yenilməz qətiyyətini, ordumuzun qüdrətini və xalqımızın milli birliyini bir daha bütün dünyaya nümayiş etdirmişdir. Prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin içərisində də Vətən müharibəsi iştirakçısı olan gənclər vardır.

Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları olaraq, ölkəmizin rəhbərliyini bir daha əmin edirik ki, bundan sonra da dövlətçiliyimizin maraqlarının və qanunun aliliyinin təmin edilməsi, vətəndaşların hüquqlarının etibarlı müdafiə işində üzərimizə düşən vəzifələri məsuliyyətlə icra edəcəyik.

***Qobustan rayon prokurorluğunun müstəntiqi vəzifəsi üzrə stajor Göhər Əmiyeva***

# Azərbaycanın Leninqradı -Tərtər

***Dünya tarixndə qanlı və dağıdıcı müharibələr çox olmuşdur. Son belə müharibələrdən biri dəhşətli altı il davam edən II Dünya Müharibəsi olmuşdur. Bu müharibə Böyük Vətən Müharibəsinə çevrilmiş və çoxmillətli keçmiş SSRİ-nin qələbəsi ilə başa çatmışdır.***

Bununla qeyd etmək istəyirəm ki, Böyük Vətən Müharibəsində dinindən, dilindən aslı olmayaraq bütün ittifaq dövlətləri birləşərək alman faşizminə qarşı igidliklə vuruşdu. Müharibənin qələbə çalınmasında, müxtəlif millətlərdən olan, çiyin-çiyinə vuruşan Azərbaycan oğullarının da böyük əməyi olmuşdur. Onlar misilsiz qəhrəmanlıqlar göstərmişlər. Təsadüfü deyil ki, tarixçilər savaşda Azərbaycan xalqının əzmkarlığı, xüsusilə Azərbaycan neft sənayesinin rolunu yüksək qiymətləndirirdilər. Bu müharibədə qəhrəman oğullarımız Həzi Aslanov, İsrafil Məmmədov, partizan Babaş Dadaşov, qvardiya polkovniki Əşrəf Məmmədov kimi minlərlə igidlərimiz ümumbəşər ideyalar uğrunda canlarını fəda etmişlər.

Sovet İttifaqının dağılması ilə xalqımızın arzusunda olduğu müstəqilliyə nail oldu. İlk günlər ölkə daxilindəki hərcimərcilikdən, ən əsası ölkədə ordunun olmamasından istifadə edən, Azərbaycan xalqının tarixi düşməni olan erməni millətçiləri havadarlarının köməyi ilə topaqlarımızın 20% -ni işğal etdilər. Azərbaycanlıları öz ata-baba torpaqlarından qovdular, insanlara olmazın işgəncə verib soyqırım törətdilər. Dünya dövlətləri bu soyqırıma biganə qaldı. Özgə torpaqlarına göz dikən erməni vandalları havadarlarına arxalanaraq Azərbaycan xalqını insanlığa yaraşmayan işgəncələrə məruz etdi.

Belə çətin bir vaxtda XX əsrdə Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi müdrik şəxsiyyət Ulu Öndər Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə gətirildi. O, siyasi baxışları müxtəlif olan qrupları bir amal üçün, torpaqlarımızın işğaldan azad edilməsi, düşmənimiz olan ağılsız erməni quldurlarından xilas edilməsi uğrunda mübarizəyə yönəltdi. Ölkə prezidenti xalqın xoş məramını ifadə edərək ən yüksək beynəlxalq kürsülərdən ATƏT-in Minsk qrupudan Ermənistanın Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılmasına kömək etməyi dəfələrlə bildirmişdir. Lakin Minsk qrupu münaqişənin həlli üçün heç bir iş aparmamış? Azərbaycanın ədalətli mövqeyinə baxmayaraq Ermənistanı müdafiə etmişlər.

Minsk qrupunun üzvü Fransa dövlət rəhbərinin açıqca erməniləri müdafiə etməsi, erməni xalqını uçuruma yuvarlatdı.

Belə ki, heç bir razılığın mümkün olmadığını görən Azərbaycan rəhbərliyi Ali Baş Komandan İlham Əliyev ordunun ən müasir silahla silahlandırdı. Nizami ordunun ən yüksək səviyyəyə çatdırdı. Azərbaycanda xalqlar dostluğunu bərpa etdi və azərbaycan tolerant bir ölkə oldu. Xalq dövlətə bir yumruq kimi birləşdi.

Əvvəllər olduğu kimi 27 sentyabr 2020-ci il tarixində Ermənistan tərəfindən münaqişə zonasından kənarda torpaqlarımıza qarşı təxribat törətməsi ordumuzun əks hücuma başlamasına səbəb oldu. Real şəraiti nəzərə alan Ali Baş Komandan, ölkə prezidenti cənab İlham Əliyev xalqın arzusuna uyğun olaraq, torpaqlarımızın işğaldan azad olunması uğrunda rəsmi səviyyədə müharibənin qaçılmaz olduğunu müəyyən etdi. Ali Baş Komandan "Nəyi, nə vaxt, necə etmək lazım olduğunu mən bilirəm" devizi ilə orduya və xalqa böyük ruh verdi.



44 gün davam edən müharibədə hərbiçilərimiz öz əməllərini igidliklərini göstərdilər. Dövlətimizin maddi və mənəvi dəstəyi ilə ordumuz yeni müharibə taktikası ilə pilotsuz uçuş aparatları ilə dinc əhaliyə ziyan vurmadan ermənistan ordusunu darmadağın etdi. General Cəmşid Naxçıvanskinin I Dünya Müharibəsində bucaq altında top atma, Böyük Vətən müharibəsində general Həzi Aslanov tankla cinahdan hücüm taktikası bu gün öyrəndiyi kimi pilotsuz uçuş aparatlarının bu taktikası dünya hərb tarixində öyrənilir.

Vətən müharibəsində tolerant ölkə Azərbaycanda yaşayan avar, yəhudu, talış, ləzgi xalqlarının igid oğulları bir yumruq kimi birləşərək igidliklə döyüşdülər. Onların arasında dövlətin ən yüksək mükafatına layiq görülənlər də oldu.

"Dəmir yumruq" ətrafında birləşən gənc igidlərimiz ermənilərin sahib çıxmadığı qocalara, xəstələrə kömək edir, onlar isə müharibə zonasından kənarda dinc əhalinin yaşadığı Gəncə, Bərdə kimi şəhərləri bombalayırdı.

Təsadüfi deyil ki, "Azərbaycanın Leninqradı" adlandırılan Tərtər şəhərinə gündə mindən artıq bomba atırdılar, ancaq şəhər təslim olmadı, heç bir sakin evini tərk etmədi.

Tarix göztərir ki, türk xalqları heç vaxt vassal, əzilən xalq olmayıb. Bu gündə Azərbaycan xalqı əzilən xalq deyil. Türk dünyasına daxil olan bu xalqın cənubi Qafqazda güclü bir dövləti var. Dünya miqyasında öz sözü, öz imzası olan İlham Əliyev kimi prezidenti var. Onun sərhədlərinin keşiyində Azərbaycanın on minlərlə igid aslan oğulları dayanmışdır.

Bu igidlər sırasında Qobustan rayon gəncləri də vardır. Həmyerlimiz Elyar Vəliyev "Qırmızı qəsəbə" adlanan yerdə beş saat otuz nəfərlə ermənilərin 1000 nəfərdən artıq əsgərinə qarşı vuruşmuşdur. "Vətən Müharibəsi qəhrəmanı " adına layiq görülmüşdür.

Mayor Mirdamət Bağıyev "Azərbaycanın Leninqradı" Tərtər şəhərininn müdafiəsində əfsanəvi qəhrəmanlıq göstərmişdir. Bu gün Azərbaycan torpaqlarında tam formalaşmış ən müasir ordu sərhədlərimizin keşiyindədir. Onları Allah qorusun.

***Poladlı kənd sakinləri Məmmədyarov Mirdiyar, Bağıyev Səristan***

## "Nizami Gəncəvi yaradıcılığında humanizm ideyaları"



***07 may 2021-ci il tarixdə Qobustan rayon İcra Hakimiyyətinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin və İsmayıllı Regional Mədəniyyət İdarəsinin Qobustan rayon Mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi yaradıcılığında humanizm ideyaları" mövzusunda onlayn seminar keçirilib.***

Seminarda Qobustan RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Aftandil Şikarov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin əməkdaşı Nahid Babaşov, İsmayilli Regional Mədəniyyət İdarəsinin Qobustan rayonu üzrə Baş məsləhətçisi Həsrət Şabili, İsmayıllı Regional Mədəniyyət idarəsinin tabeçiliyində fəaliyyət göstərən Qobustan rayon Mərkəzi Kitabxana Sisteminin direktoru Cəbrayılova Adilə, mədəniyyət işçiləri və gənclər iştirak ediblər.

## Yol kənarlarına yeni ağaclar əkilmişdir





***Qobustan rayon Çalov kənd sakini Cəbrayılov Sarvan kəndə gedən yolun kənarlarına yeni ağaclar əkmişdir. Əkilən ağaclara qulluq etmək üçün əlindən gələni edir.***

Belə ki, əkilmiş ağaclar kənd yoluna xüsusi gözəllik verməkdədir. Çalov kənd sakini Cəbrayılov Sarvan əkilən ağacların suvarılması üçün damcı-su sisteminin çəkilməsini təmin etmiş, onların quruyub məhv olması təhlükəsindən qorumuşdur. Buna baxmayaraq şəraitə uyğunlaşmayan ağaclar da vardır ki, payız mövsümündə yeniləri ilə əvəz olunması nəzərdə tutulur. Bu işlərin aparılmasında Cəyirli kənd İƏD üzrə nümayəndəliyin əməkdaşları və kənd sakinlərin yaxından iştirak edirlər. Onlar ağacların diblərini yumşaldır, alaq otlarından təmizləyirlər. Mal-qara tərinfindən yeyilib məhv olması təhlükəsindən qoruyurlar. İşlərinizdə uğurlar.

***Redaktor***

## COVID-19 infeksiyasına qarşı peyvənd



***Koronavirus pandemiyasının qarşısının alınması məqsədilə ölkəmizdə həyata keçirilən vaksinasiya tədbirləri çərçivəsində Qobustan rayonunda əhalinin COVID-19 infeksiyasına qarşı peyvənd olunması prosesi davam edir. Prosesə başlandığı gündən indiyədək rayon üzrə vətəndaşlara 9 min 437 doza vaksin vurulub.***

Rayon icra hakimiyyətində yaradılan qərargahdan AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, indiyədək birinci mərhələ üzrə peyvənd olunan şəxslərin ümumi sayı 6 min 295 nəfər, ikinci mərhələ üzrə peyvənd olunanların sayı isə 3 min 142 nəfərdir.

Yaş qrupları üzrə bu günədək Balakən rayonunda 65 yaşdan yuxarı vətəndaşlara 1 min 469 doza, 50-65 yaş arasında vətəndaşlara 3 min 717 doza, 50 yaşadək vətəndaşlara isə 4 min 251 doza vaksin vurulub.

***2020-ci ilin sentyabr ayının 27-dən başlayan və 44 gün davam edən II Qarabağ müharibəsi müasir Azərbaycan tarixinin ən şanlı səhifəsidir. Ölkəmizin ərazisinin 20 faizini işğal edən Ermənistan bütün beynəlxlq qanunları kobud surətdə pozaraq, zəbt etdiyi torpaqları geri qaytarmaq istəmir, sülh danışıqlarını uzadırdı. Təbii ki, yaranmış vəziyyətlə heç vaxt razılaşa bilməzdik, I Qarabağ müharibəsində yüz minlərlə günahsız soydaşımız yurd-yuvalarından didərgin salınmış, qətlə yetirilmişdir. Bu azmış kimi, mənfur ermənilər təmas xəttində və sərhədyanı bölgələrdə teztez təxribatlar törədir, dinc sakinlərimizə təsərrüfat işləri ilə məşğul olmağa imkan vermirdilər. Ermənilərin alçaq hərəkətlərinin cavabı verilməliydi və qəhrəman Azərbaycan oğulları düşməndən intiqamını döyüş meydanında aldı.***

# Hərbi Qənimətlər Parkı

Bu şanlı qələbə bizə heç də asan başa gəlmədi, 3 minə yaxın igid əsgərlərimiz şəhid oldu. Xalqımız üçün, şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər, torpaqlarımız azad, ərazi bütövlüyümüz bərpa olundu. Şanlı Ordumuz şəhidlərin qanını yerdə qoymadı, onların intiqamını döyüş meydanında aldılar, düşməni torpaqlarımızdan qovaraq, tarixi ədaləti bərpa etdilər. Bu şanlı Zəfər Azərbaycan xalqının birliyinin, mübarizliyinin, əzmkarlığının, qüdrətinin göstəricisi idi.

Azərbaycan Ordusunun qəhrəmanlığı, peşəkarlığı ilə yanaşı, mənəvi üstünlüyü müharibənin taleyini həll etdi. Vətən müharibəsi xalqımızın gücünü, iradəsini, birliyini nümayiş etdirdi. Sülh danışıqlarını pozmaq ermənilərə baha başa gəldi, qəhrəman əsgərlərimiz düşmənə göz açmağa imkan vermədilər. Ordumuz qarşısında aciz qalan Ermənistan ordusunda fərarilik baş alıb gedirdi, onlar əməliyyat apara bilmir, silah və döyüş texnikasını atıb qaçırdılar. Azərbaycan Ordusu isə həmişə uğurlu hücum əməliyyatları keçirmiş, geriyə addım atmamışdılar. Yaralanmış hərbçilərimiz belə sağalıb yenidən döyüşə atılırdılar. 44 günlük Vətən müharibəsində Azərbaycan əsgəri yüksək mənəvi ruh, mənəvi üstünlük göstərmişdir.

44 gün davam etmiş Vətən müharibəsi xalqımızın şanlı tarixidir. Bu tarixi qələbə ilə müzəffər xalq kimi özünü təsdiq edən Azərbaycan haqlı olaraq, əbədi qürur hissi keçirəcəkdir. Mənfur, xain Ermənistan isə məğlub olmuş, qarşımızda diz çökmüş, aciz ölkədir.

Vətən müharibəsi Ordumuzun gücünü, peşəkarlığını, həm də müasirliyini göstərdi. Bu müharibə bütün dünya tərəfindən bir mənalı olaraq, XXI əsrin müharibəsi adlandırıldı. Çətin relief şəraitinə, düşmən tərəfindən illərlə inşa olunmuş və bərkidilmiş istehkamlara baxmayaraq hərbçilərimiz peşəkarlıq, məharət, güc, hərbi elm nümayiş etdirdilər, düşmən üzərində parlaq qələbə qazandılar. Təsadüfi deyildir ki, Azərbaycan Ordusunun tətbiq etdiyi hərbi strategia dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir.

Mənfur düşmən üzərində qazanılmış qələbənin əbədiləşdirilməsi və gələcək nəsillərin öyrənilməsi məqsədilə paytaxtın Xətai rayonunda 5 hektar ərazini əhatə edən Hərbi Qənimətlər Parkı yaradılmışdır. Parkda nümayiş etdirilən eksponatlar Azərbaycanın Vətən müharibəsində qazandığı qələbənin əzəmətini göstərir, aparılan döyüş əməliyyatlarını canlandırmağa imkan yaradır. Eksponatlar arasında Ordumuzun döyüşlər zamanı ermənilərdən qənimət götürdüyü 2 mindən çox hərbi avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya, 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İsgəndər-M" raketinin qalıqları sərgilənir.

Vətən müharibəsində qazanılmış qələbə asan başa gəlməmişdi, düşmən 30 il idi ki, işğal olunmuş ərazilərdə möhkəm istehkamlar, səngərlər qurmuşdu. Azərbaycan Ordusu doğrudan da böyük qəhrəmanlıq, sücaət göstərərək bu istehkamları darmadağın etdilər, mənfur düşməni diz çökdürdülər. Hərbi Qənimətlər Parkını ziyarət edən hər kəs bir daha müharibənin miqyasının, dəhşətlərinin, erməni vandalizminin, həm də Azərbaycan Silahlı Qüvvələrinin qüdrətinin, gücünün, iradəsinin şahidi olacaqlar.

Doğrudan da erməni vandalizmi sərhəd tanımır, bu insanlığa qarşı bir cinayətdir. Erməni quldurları işğal olunmuş ərazilərdə bütün şəhərləri, kəndləri dağıtmış, qəbirləri şumlamış, müsəlman aləmini təhqir edərək məcsidlərdə mal-qara saxlamışdılar. Erməni vəhşiliyini heç vaxt unutmamalı, yaddan çıxarmamalıyıq.

Erməni faşizmi üzərində qələbəni effektiv ordu quruculuğu siyasətinin və iqtisadi inkişafın nəticəsi kimi qiymətləndirməliyik, yalnız güclü iqtisadiyyata malik dövlət güclü ordu yaratmağa qadirdir. Erməni riyakarlığına dəfələrlə şahid olan Azərbaycan sülh danışıqları zamanı, həm də ordu quruculuğuna xüsusi diqqət ayırırdı, güclü ordu yaradırdı. Ötən illər ərzində hərbi xərclərimiz artırıldı, müasir silah-sursat, hərbi texnika alınaraq ordumuzun təchizatına verildi, beləliklə Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti möhkəmləndi. Vətən müharibəsində qazanılmış qələbə göstərdi ki, Azərbaycanda ordu quruculuğu yüksək səviyyədə təşkil olunmuş, silahlanma siyasəti düzgün aparılmışdır.

Vətən müharibəsi ərəfəsində Azərbaycanda tək ordu quruculuğu sahəsində deyil, digər sahələrdə də böyük hazırlıq işləri görülmüşdü, siyasi sabitlik, vətəndaş birliyi təmin edilmişdi. Deməli olar ki, bütün beynəlxalq təşkilatlar Azərbaycanın haqq işini dəstəkləyən qərar və qətnamələr qəbul etmişdi və beləliklə, erməni faşizmi üzərində qələbinin təminatı və rəsmiləşdirilməsi üçün siyasi və hüquqi baza yaradılmışdı.

II Qarabağ müharibəsində qazanılmış qələbədə heç şübhəsiz ölkənin iqtisadi qüdrətinin də payı az deyildir. Qarabağın işğalı dövründə Azərbaycanın iqtisadi inkişafı reallaşmasaydı, iqtisadi müstəqillik olmayacaqdı, Ordumuza lazım olan müasir silahlar əldə edə bilməyəcəkdik. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilmiş iqtisadi islahatlar Azərbaycanın enerji müstəqillini təmin etdi, nəhəng tarixi layihələr reallaşdı, böyük əhəmiyyət daşıyan neft-qaz kəmərləri inşa olundu. Bütün nəhəng layihələr, nəqliyyat, kommunikasiya, enerji xətləri Ermənistan yan keçməklə çəkildi.

Dağlıq Qarabağ münaqişəsinin kökü Sovet İttifaqı yaradılan gündən qoyulmuşdu. 1970-1980-ci illərdə Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olarkən, erməni separatçıları bu məsələni qaldırmağa cəsarət edə bilmirdilər. Ona görə də ümummilli lider Heydər Əliyev dünya ermənilərinin əsas hədəfi olmuşdur. 1987-ci ildə Ulu Öndər vəzifədən uzaqlaşdırılan kimi ermənilər Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürdülər, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini tələb etdilər. Moskvanın himayədarlığı ilə Dağlıq Qarabağda Xüsusi idarəetmə komitəsi yaradaraq faktiki olaraq Azərbaycandan ayırmışdılar. Həmin vaxtdan ermənilər bütün dünyada Azərbaycana qarşı çirkin informasiya kampaniyası aparmağa başlamışdılar.

Münaqişənin ilk illərində havadarlarının köməyi ilə Ermənistan böyük üstünlük qazandı, qısa müddət ərzində Dağlıq Qarabağı və ətraf rayonları işğal etməyə nail oldular. Müstəqilliyimizin ilk illərinə təsadüf olunmuş bu dövrdə cəzasızlığdan qudurmuş ermənilər dəhşətli cinayətlərə əl atdılar, Rusiyanın 366-cı alayının iştirakı ilə Xocalı faciəsini törətdilər, 600-dən artıq dinc sakin qətlə yetirildi, onların arasında uşaqlar, qadınlaq, qocalar vardı. Bütün dünya ölkələrinin Xocalı soyqırımı haqqında məlumatları var və ondan artıq dövlət bu soyqırımı rəsmən tanımışdır. Təəssüflər olsun ki, həmin dövrdə hakimiyyətə can atan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa və Laçın işğal altına düşdü. Tezliklə hakimiyyətə gələn bu qüvvələr növbəti xəyanətlərə imza atdılar, Kəlbəcər düşmənə təslim edildi, Azərbaycanda vətəndaş müharibəsi başladı. Bu əlbəttə ki, dövlətə və Azərbaycan xalqına qarşı törədilmiş xəyanətkarlıq idi. Yalnız Ulu Öndər Heydər Əliyevin xalqın istəyi və təkidi ilə təkrar hakimiyyətə qayıdışından sonra ölkədə xəyanət siyasətinə son qoyuldu, siyasi sabitliyə nail olundu.

AXC-Müsavat cütlüyünün xəyanətləri bitmək bilmirdi, bu siyasi qüvvələr şəxsi ambisiyalar naminə dövlətin maraqlarını satmağa hazır idilər. 2003-cü ildə keçirilmiş Prezident seçkilərindən sonra məğlub olmuş AXC-Müsavat cütlüyü hərbi çevriliş etmək istəmişdilər, lakin xalqımız onları dəstəkləmədi. Bu cütlük və onların ətrafına yığışmış qüvvələr 2005-ci ildə Azərbaycanda "narıncı inqilab" təşkil etmək istəmişdilər, bu məqsədlə narıncı çadırlar gətirilmişdi, başlarına narıncı bantlar bağlamışdılar. Onlar başa düşməli idilər ki, bütün "narıncı inqilablar" xalqların və dövlətlərin tənəzzülü ilə bitir.

Bütün bu baş verənlər bizim yaxın tariximizdir, gələcək naminə tarixi həqiqətləri bilməli, saxtakarlığa yol verməməliyik. Hamı, xüsusilə gənc nəsil bilməlidir ki, birinci erməni dövləti bizim tarixi torpaqlarımızda yaradılmışdır. Xalqımız qarşısında böyük xidmətləri olan Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri tarixi İrəvan şəhərini Ermənistana güzəştə getmək olmuşdur. Həmin dövrdə də güclü dövlətlər Ermənistana himayədarlıq etmişlər. Buna görə də 1918-1920-ci illərdəki müstəqilliyimiz yarımçıq idi, Azərbaycan Xalq Cümhuriyyəti tam hakimiyyəti təmin etməkdə çətinlik çəkirdi. Təəssüf ki, həm Sovet dövründə, həm də müstəqilliyimizin ilk illərində əsil həqiqətləri gizlətmiş, bizim üçün saxta tarix uydurmuşlar. Biz tarixi həqiqətləri üzə çıxarmalı, saxta tarixin girovuna çevrilməməliyik.

***Qadir Əkbərov,***
***Qobustan rayon Gənclər və İdman İdarəsinin rəisi***

# 2021-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar, ödənilməli vergilər və sığorta haqları barədə yaddaş

**15 iyun**

**Məcburi dövlət sosial sığorta haqqı:** Hər ay üçün hesablanır, əməkhaqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq ödənilir.

İşsizlikdən sığorta haqqı: Hər ay üçün hesablanmış sığorta haqqı sığortaedən tərəfindən əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə ödənilir.

İcbari tibbi sığorta haqqı: Hər ay üzrə əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.

**21 iyun**

**Gəlir vergisi (Xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

**Gəlir vergisi (İdman mərc oyunları, lotereyalar, habelə digər yarışlar və müsabiqələr üzrə):** İdman mərc oyunlarından, lotereyalardan, habelə digər yarışlar və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman oyunları ilə əlaqədar aparılan idman mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində gəlir vergisini hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətdək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar. Lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən gəlir (mükafat) rezident şəxslər tərəfindən ödənildiyi halda ödəməni həyata keçirən şəxslər, həmin gəlirlər Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə isə bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru ödəmə mənbəyində gəlir vergisi hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına təqdim etməyə borcludurlar.

**Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Yol vergisinin bəyannaməsi"ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**Sadələşdirilmiş vergi (Daşınmaz əmlakın təqdim edilməsi üzrə):** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Daşınmaz əmlakın təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar.

**Sadələşdirilmiş vergi (Pul vəsaitlərinin nağd qaydada çıxarılması üzrə):** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən 1 faiz hesablanan vergini vəsaiti alan şəxsin bank hesabından tutulur, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergi dövlət büdcəsinə köçürülür və həmin müddətədək "Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi" vergi orqanına təqdim edilir.

**Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

*4 Saylı Ərazi Vergilər İdarəsi*

## Qobustan rayon PŞ-nin DYPB-nin əməkdaşları tərəfindən keçirilən növbəti reyd








Azərbaycan Respublikası DİN-nin 03.04.2021-c il tarixli 001-22640-1221nömrəli tədbirlər planına əsasən Qobustan rayon PŞ-nin DYPB-nin əməkdaşları tərəfindən cari ilin may ayı ərzində keçiriləcək reydlərə dair 145-3816-1121 nömrəli əlavə tədbirlər planı hazırlanaraq icra edilmişdir. Keçirilmiş reydlər zamanı aşkar edilmiş inzibati xəta haqqında protokollar tərtib edilməklə yanaşı sürücülər ilə bu istiqamətdə pofilaktika söhbətlər də aparılmışdır. Vətəndaşların mariflәndirilməsi məqsədi ilə keçirilmiş reydlərin bir qismi kütləvi informasiya vasitələrinin iştirakı ilə aparılaraq, müxtəliv TV kanallarda və yerli qəzetlərdə yayımlanması təmin edilmişdir.

Ümumilikdə keçirilmiş reydlər zamanı 56 inzibati xəta aşkarlanaraq 51inzibati xəta haqqında protokol tərtib edilmişdir. Onlardan təhlükəsizlik kəməri bağlamadannəqliyyat vasitələrini idarə edilməsinə görə 4, işıq cihazlarından və səs siqnallarından istifadə qaydasının pozulmasına görə 14, nəqliyyat vasitəsini idarə etməkhüququ olmadan idarə edilməsinə görə 1, sanitar-gigiena və karantin rejimi dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq İcra orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına görə 1, nəqliyyat vasitələrini sərxoş vəziyyətdə idarə edilməsinə görə 3, piyadalar tərəfindən yolun müəyyən edilməmiş yerdən keçdiyinə görə 2, atmosferin nəqliyyatdan atılan zəhərli qazlarla çirkləndirilməsinə görə 5, dayanama və durma qaydalarının pozulmasına görə 18 və digər qayda pozuntularına görə 3 inzibati xəta aşkar edilmişdir.

***Redaktor***

## FHN havaların isinməsi ilə bağlı əhaliyə müraciət etdi

Nazirlik bir neçə sadə təhlükəsizlik qaydasını vətəndaşların diqqətinə çatdırıb:

*- taxıl zəmilərində, xırmanlarda, ot tayaları yığılan yerlərdə və onların yaxınlığında açıq oddan istifadə etməyin və siqaret çəkməyin;*

*- sürtgü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərlə islanmış materialları, eləcə də şüşə qab və şüşə qırıntılarını ətrafa atmayın;*

*- siqaret kötüyü və kibriti tam söndürülməmiş atmayın;*

*- fərdi yaşayış evləri, təsərrüfat və istehsalat müəssisələrinin həyətlərini quru ot və tullantılardan vaxtaşırı təmizləyin;*

*- təbiət qoynunda tonqal qalayarkən bunun üçün xüsusi hazırlanmış yer, yaxud köhnə tonqalın yerini, quru ot, kol-kos, ağac və ağac qırıntılarının olmadığı açıq sahəni seçin, ətrafını 0,5-1 metr radiusda otlardan təmizləyin. Tonqalı nəzarətsiz qoymayın;*

*- tonqalın tam söndüyünə əmin olmadan ərazini tərk etməyin - tonqal əvvəlcə su ilə söndürülməli, sonra isə üstü torpaqla örtülməlidir;*

*- küləkli havada tonqal qalamayın;*

*- yadda saxlayın ki, meşə sahələrində tonqalların qalanması qadağandır;*

*- yanğın baş verərsə, mümkündürsə, onu əlinizin altında olan vasitələrlə (su, torpaq, qalın parça materialı və s.) söndürməyə çalışın və "112" qaynar xəttinə məlumat verin.*

***Təhlükə zamanı "112"yə zəng edin!***

## ELAN

Qobustan rayon Dərəkən kənd sakini İsrəfilov Uğur Babsən oğluna etibarnamə ilə verilmiş 37BA 995 nömrə nişanlı SAZ-3507 özüboşaldan yük avtomobilinə məxsus AAN№367464 qeydiyyat şəhadətnaməsi itmişdir. Tapan şəxslərdən xahiş olunur Qobustan RPŞ-nə təqdim etsinlər.

Səftərova Abdaxanıma məxsus, kənd təsərrüfatı texnikası PPL-F-1,6 markalı otbağlayanın AQ 000114 №-li qeydiyyat şəhadətnaməsi itmişdir. Tapan şəxslərdən xahiş olunur Qobustan DAİM-nə təqdim etsinlər.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti

www.qobustan-ih.gov.az

*Baş redaktor:* Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:* Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000

E_mail:qobustanqazeti@mail.ru